**UOT 327**

***Musa Qasımlı,***
***AMEA-nın müxbir üzvü, professor***
***AMEA Qafqazşünaslıq İnstitutunun direktoru***
***musa_qasimli@hotmail.com***

***...biz son 17 il ərzində doğrudan da tarixi uğurlara imza atdıq. Bu dövrü xarakterizə etmək üçün çox vaxt lazımdır. Hər şey göz qabağındadır. Əminəm ki, bizim tarixçilərimiz, politoloqlarımız, alimlərimiz bu dövrü də məqalələrdə, kitablarda, dərsliklərdə düzgün əks etdirəcəklər.***

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

# İLHAM ƏLİYEVİN TARİXİ ZƏFƏRİ: REGİON VƏ DÜNYA ÜÇÜN ƏHƏMİYYƏTİ

**Annotasiya**

Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla həllindən uzun illər ərzində boyun qaçıran işğalçı ölkənin törətdiyi təxribatlara cavab olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi altında əməliyyatlara başlayan Azərbaycan Ordusu 44 günlük İkinci Qarabağ müharibəsində düşmən üzərində parlaq qələbə qazandı. İşğal altında olan torpaqlar azad edildi. Qazanılan qələbə Azərbaycanın coğrafi-siyasi sərhədlərini aşır, regional və beynəlxalq əhəmiyyət kəsb edir. Məqalədə qazanılan qələbənin Azərbaycan, region və dünya üçün əhəmiyyəti araşdırılmışdır.

***Açar sözlər:*** *Azərbaycan, Ermənistan, Rusiya, Şuşa bəyannaməsi, Cənubi Qafqaz*

## ИСТОРИЧЕСКАЯ ПОБЕДА ИЛЬХАМА АЛИЕВА: ЗНАЧЕНИЕ ДЛЯ РЕГИОНА И МИРА

**Аннотация**

Азербайджанская Армия под руководством Верховного Главнокомандующего Вооруженными Силами Азербайджанской Республики Президента Ильхама Алиева начала операции в ответ на провокации, совершенные страной-оккупантом, долгие годы несклоняющаяся к мирному разрешению нагорно-карабахского конфликта, созданного в результате военной агрессии Армении. Азербайджанская Армия одержала блестящую победу над врагом в 44-дневной Второй Карабахской войне. Были освобождены земли находившиеся под оккупацией. Победа выходит за географические и политические границы Азербайджана, имеет региональное и международное значение. В статье изучено значение победы для Азербайджана, региона и мира.

***Ключевые слова:*** *Азербайджан, Армения, Россия, Шушинская декларация, Южный Кавказ*

## THE HISTORICAL VICTORY OF ILHAM ALIYEV: IMPORTANCE FOR THE REGION AND THE WORLD

**Annotation**

In response to the provocations of the occupying country, which for many years refused to resolve the Nagorno-Karabakh conflict peacefully, which was created as a result of Armenia's military aggression, the Azerbaijani Army launched operations under the leadership of the Supreme Commander-in-Chief of the Armed Forces of the Republic of Azerbaijan, President Ilham Aliyev and won a resounding victory over the enemy in the 44-day Second Karabakh War. Occupied lands were liberated. The victory transcends the geographical and political borders of Azerbaijan and is of regional and international significance. The article examines the significance of the victory for Azerbaijan, the region and the world.

***Keywords:*** *Azerbaijan, Armenia, Russia, Shusha Declaration, South Caucasus*

### *Giriş*

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllindən boyun qaçıran işğalçı ölkə 44 günlük müharibədə rüsvaylıqla məğlub oldu. Hərbi əməliyyatlar 2020-ci il noyabrın 10-da Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın birgə bəyanat imzalaması ilə başa çatdı [7]. Bu sənəd müharibədə işğlaçı ölkənin rüsvayçı hərbi təslim aktı idi. Çünki hərbi əməliyyatların davam etdiyi dövrdə Prezident İlham Əliyev Ermənistan qarşısında tək bir şərt irəli sürmüşdü. Bildirmişdi ki, Ermənistanın xarici işlər naziri, müdafiə naziri və ya başqa kimsə deyil, şəxsən Baş nazir Nikol Paşinyan işğalçı qoşunların nə zaman çıxarılacağına dair qəti fikrini söylədikdən və konkret cədvəl verdikdən sonra hərbi əməliyyatlar dayandırılacaqdır [7]. Nəticə ondan ibarət oldu ki, Azərbaycan qarşısında 7 şərt irəli sürən Nikol Paşinyan Prezident İlham Əliyevin tək şərtini qəbul etməyə və onun müzəffər komandan çəkmələrinin qarşısında ikiqat diz çökərək hərbi təslim aktını imzalamağa məcbur oldu. Qazanılan qələbənin həm Azərbaycan, həm də region və bütün dünya üçün böyük tarixi əhəmiyyəti vardır.

### *Qələbənin Azərbaycan və region üçün əhəmiyyəti*

Müharibə xarakterinə görə Azərbaycan tərəfindən ədalətli müharibə idi. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövləti qarşısına qoyduğu başlıca məqsədə – işğal altında qalan torpaqları azad etməyə nail oldu. Qəhrəman Azərbaycan əsgər, gizir və zabitlərinin şücaəti sayəsində düşmən darmadağın edildi. Vətən torpağı heç bir zaman ölməyəcək, Azərbaycan milləti və dövləti əbədi mövcud olduqca yaşayacaq şəhid qanları ilə suvarıldı. Azərbaycan Respublikası, ordusu və xalqı bu müharibədən qalib çıxdı, Ermənistan isə hərb, diplomatik-siyasi, iqtisadi, mənəvi-psixoloji və b. baxımdan rüsvayçı şəkildə məğlub edildi [13]. Dünyanın 50 qabaqcıl ölkəsinin orduları cərgəsində yer tutan Azərbaycan Ordusu uzun illər boyu uydurulmuş "yenilməz Ermənistan ordusu" mifini darmadağın etdi. İşğalçı Ermənistan ordusunun 10 mindən yuxarı əsgər və zabiti fərarilik edərək döyüş meydanından qaçdı. Azərbaycan Ordusu düşmənin

işğalçı qüvvələri əzdi, külli miqdarda döyüş texnikası və sursatını qənimət olaraq ələ keçirməklə təkcə Ermənistanın deyil, onu silahlandıran və havadarlıq edən dövlətlərin də ümidlərini puça çıxardı. Bununla əlaqədar olaraq Prezident İlham Əliyev deyirdi:

*“Otuz il ərzində Ermənistan rəhbərliyi “güclü ordusu” haqqında uydurmalar ortalığa atırdı, “yenilməz Ermənistan ordusu” barədə miflər yaradırdı. Haradadır bu “yenilməz Ermənistan ordusu?”. Görün, necə qaçır bizim qabağımızdan. Bu, mif idi, bu, yalan idi. Bunu biz yerə vurduq. Otuz il bizi təhqir edirdi. Otuz il idi ki, işğal edilmiş torpaqlarda abidələrimizi dağıdırdı, tarixi-mədəni irsimizi silmək istəyirdi. Otuz il ərzində beynəlxalq aləm nə üçün sanksiya tətbiq etmədi təcavüzkar dövlətə qarşı? Mən dəfələrlə demişəm ki, sanksiyalar tətbiq edilməlidir. Bu ölkə, bu ölkənin rəhbərliyi öz xoşu ilə bu torpaqlardan çıxmaq istəmir. O, bizi aldadır, danışıqları imitasiya üçün aparır. Onlara inam yoxdur və mən haqlı çıxdım. İndi baxın orada qurulmuş istehkamlara. Belə istehkam quran ölkə, bu qədər oraya vəsait xərcləyən ölkə oradan çıxarmı? Çıxmaq istəsəydilər, bunu etməzdilər. Yəni, onların hər bir sözü yalandır ”[8].*

Hər bir azərbaycanlının qəlbində xüsusi milli-mənəvi yeri olan Şuşa şəhərinin azad edilməsi əslində bütün Qarabağın Azərbaycana qaytarılması deməkdir. Şuşa Qarabağın tacı, açarıdır. Hələ Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi ki, Şuşasız Azərbaycan yoxdur. Şuşanın işğaldan azad edilməsi Azərbaycanın inkişafı və daha güclü dövlət olması deməkdir.

Hərbi əməliyyatların əvvəllərində Azərbaycanın bədxahları yazırdılar ki, guya döyüşü pualar, dronlar udur. Bütün bunlar cəfəngiyyatdan başqa bir şey deyildi. Döyüş meydanında düşməni əzərək dastan yazan Azərbaycan hərbçiləri idi. Şuşa şəhərində küçə vuruşmalarında, əlbəyaxa döyüşlərdə Azərbaycan əsgəri dünya hərb tarixində parlaq səhifə yaratdı. Dövlət başçısı Azərbaycan hərbçilərinin qəhrəmanlığı haqqında deyirdi:

*“Bu gün də onların dövlətinin rəhbərləri gecə-gündüz yalan, uydurma yayırlar Azərbaycan haqqında, döyüş meydanında baş verən hadisələr haqqında. Sanki kimsə gəlib bizim əvəzimizə vuruşur. Azərbaycan xalqı, Azərbaycan gəncləri, Azərbaycan əsgəri onlara dərs verir. Təkbaşına vuruşuruq, hər kəs bunu bilir. Amma özlərinə sığışdıra bilmirlər, çünki miflər dağılır, miflər onların ideologiyasının əsasdır. ...Bu yalançıları biz bundan sonra da qovacağıq. Onlar gördülər ki, kim kimdir. Gördülər ki, biz onlara elə dərs veririk ki, bu dərsi heç vaxt unutmayacaqlar. İndi isə imdad diləyirlər. Ona-buna zəng edirlər, kömək edin, kömək edin! Bəs, hanı sənin “müzəffər ordun”, hanı sənin “yenilməz ordun?! [8]”*

Qazanılan qələbə Azərbaycan xalqını qalib xalqa, qalib dövlətə çevirdi, millətin başını uca etdi, üstündəki ləkəni sildi, əyilmiş qamətini, belini düzəltdi, başını dik etdi, özünə inam və güvən hissi yaratdı. Hələ ötən əsrin 80-ci illərində xarici ölkə tarixçiləri yazırdılar ki, Azərbaycanın şimal torpaqları çarizm tərəfindən işğal edilib işğal olunduqdan sonra azərbaycanlılar daim sındırılmış və özlərinə inamsız halda Bakı küçələrində gəzirdilər. Onların fikrincə, XX əsrdə azərbaycanlılar yalnız iki dəfə Bakı küçələrində başlarını dik tutaraq gəzmişdilər: birinci dəfə 1918-ci ildə Azərbaycan və Osmanlı hərbi hissələrindən ibarət qurulmuş Qafqaz İslam Ordusu tərəfindən Bakı şəhəri yadelli qüvvələrdən azad edildikdən sonra, ikinci dəfə isə Azərbaycan Kommunist Partiyası Mər-

kəzi Komitəsinin Birinci katibi Heydər Əliyev 1976-cı ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ildə isə Siyasi Büro üzvü seçildikdən və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edildikdən sonra.

Azərbaycan xalqı Prezident İlham Əliyevin müdrik dövlət rəhbərliyi, planetar təfəkkürü, strateqliyi, diplomatik-siyasi ustalığı və sərkərdəlik məharəti sayəsində son 200 ildə üçüncü, XXI əsrdə isə birinci dəfə təkcə Bakı küçələrində və ölkədə deyil, dünyanın hər bir yerində başını dik tutaraq, özünə güvənərək qalib millət kimi qürur hissi ilə addımlamağa başladı. Azərbaycan milləti və dövləti mövcud olduqca qalacaq bu böyük əsərin memarı Prezident İlham Əliyevdir.

Azərbaycan təkcə hərb meydanında qələbə qazanmadı. Qazanılan qələbə Azərbaycan iqtisadiyyatının Ermənistan iqtisadiyyatı üzərində əzici qələbəsi oldu. Qələbə belə bir fikrin nəinki mövcud şəraitdə düzgün olduğunu təsdiq etdi, eyni zamanda gələcək nəsillər üçün də örnək oldu ki, iqtisadi cəhətdən müstəqil, güclü dövlət hər şeyə qadirdir. Cənubi Qafqaz iqtisadiyyatının təqribən 75%-ni təşkil edən Azərbaycan iqtisadiyyatı qarşısında Ermənistan tab gətirə bilmədi. Qələbənin dünya bazarlarında neftin qiymətinin aşağı düşdüyü, koronavirus pandemiyasının tüğyan etdiyi ağır bir şəraitdə qazanılması Prezident İlham Əliyevin uzun illərdən bəri yürütdüyü iqtisadi strategiyanın düzgünlüyünü bir daha təsdiq etdi. Ordunun bütün təchizatı uğurla təmin olundu. İşğal altında olan torpaqlarının azad edilməsindən ötrü Azərbaycanın apardığı uğurlu hazırlıq işləri öz nəticəsini verdi. Prezident İlham Əliyev deyirdi:

*“Biz bu günü yaxınlaşdırmaq üçün hazırlaşırdıq. Mən öz çıxışlarımda dəfələrlə demişdim ki, hər gün biz bu günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırdıq. Görəndə ki, dünyada beynəlxalq hüququn norma və prinsipləri kobudcasına pozulur, aparıcı beynəlxalq təşkilatların qərar və qətnamələrinə məhəl qoyulmur, işğalçı Ermənistan daha da azğınlaşır, bizim torpağımızdan çıxmaq istəmir, əlbəttə, biz daha ciddi hazırlaşmalı idik. Bu hazırlıq hərtərəfli olmalı idi. Bu hazırlıq işlərinə biz vahid konsepsiya çərçivəsində yaxınlaşırdıq və bunu müəyyən edirdik”[17] .*

“Könüllü” adı altında küçələrdən erməniləri cəbhəyə zorla yığarkən “varınızdırsa, özünüzlə hərbi geyim, çəkmə gətirin” xahişləri edən, əsgərini yeməklə təmin edə bilməyən bir qurama dövlətin qüdrətli Azərbaycan iqtisadiyyatı qarşısında diz çökməsi təbii idi. Ermənistan resurs müharibəsinə hazır deyildi və bundan ötrü potensialı da mövcud deyildi. Ona görə də məğlubiyyət qaçılmaz idi.

Müharibədə Azərbaycan hərbi-sənaye kompleksi və müasir texnologiyası Ermənistan üzərində qələbə qazandı. Dövlət büdcəsində hərbi xərclərin daim artırılması, ordu quruculuğuna xüsusi diqqətin yetirilməsi, yeni texnologiyaların işlənilməsi, tətbiqi və səmərəli beynəlxalq əməkdaşlıq nəticəsində Azərbaycanda inkişaf etmiş hərbi-sənaye kompleksi quruldu. Müasir hərbi-sənaye kompleksinin məhsulları döyüş meydanında düşmən üzərində hakim oldu. Bununla əlaqədar olaraq Prezident İlham Əliyev deyirdi:

*“Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Mən bunu dəfələrlə deyirdim, hərbçilərlə görüşlər əsnasında, digər tədbirlərdə deyirdim, bu gün biz elə bir güclü ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik. Ona görə ordu-*

*muzun müasir texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, ordumuzun döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması – bütün bunlar məqsədyönlü şəkildə apardığımız siyasətin tərkib hissəsi idi. Bütün başqa sahələrdə hazırlıq gedirdi. Bizim texniki imkanlarımız böyük dərəcədə artmışdır və İkinci Qarabağ müharibəsində biz bunu bir daha nümayiş etdirdik"[17].*

Qələbə Azərbaycan hərb mütəxəssislərinin və azərbaycanlı zəkasının Ermənistan hərbi mütəxəssisləri və "intellekti" üzərində parlaq qələbəsi oldu. Müasir silahları idarə edən Azərbaycan mütəxəssislərinin biliyi, bacarığı və zəkası üstünlüyünü təsdiq etdi. Həmin azərbaycanlı mütəxəssislər özü-özündən deyil, bilavasitə Prezident İlham Əliyevin liderliyində yürüdülən dövlət siyasəti nəticəsində yetişmişdilər.

Qazanılan qələbə Azərbaycanda dövlət və millətin, milli-mənəvi birliyin təcəssümü oldu. Əgər millət Prezident İlham Əliyevə güvənməsəydi, yürütdüyü siyasət nəticəsində dövlət hakimiyyəti və millət arasında sıx birlik və yekdillik yaradıla və deməli, qələbə də qazanıla bilməzdi. Qələbə indiki və gələcək nəsillərə belə bir dərs verdi ki, yalnız güclü dövlət, qüdrətli millət və lider hər şeyə qadirdir. Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyev tərəfindən qurulan güclü Azərbaycan Respublikası dövlətini yeni şəraitə uyğun olaraq müasirləşdirərək qələbəni təmin etdi. Ən çətin və mürəkkəb şəraitdə Azərbaycan dövlətini qələbəyə gətirən millət və dövlət birliyinin baş memarı məhz Prezident İlham Əliyevin sarsılmaz iradəsi, qətiyyəti və mahir diplomatiyası oldu.

Bu qələbə həm də Azərbaycanın səmərəli və çevik dövlət idarəçilik sisteminin qələbəsi idi. Xüsusi qeyd etmək lazımdır ki, koronovirus pandemiyasının yaratdığı dünya böhranı, neft qiymətlərinin aşağı düşməsi, ölkə daxilində pandemiya ilə əlaqədar olaraq işləməyən milyonlarla insana sosial yardımların edilməsi, ali məktəblərə dövlət sifarişli yerlərin sayının artırılması, şəhid ailələri və müharibə əlilləri üçün evlərin və mənzillərin tikilməsi, hər günü böyük məsrəflər tələb edən müharibənin aparılması ilə paralel olaraq dövlət həyatının bütün sahələrində aparılan islahatların uğurla başa çatdırılması dünya ölkələrinin dövlətçilik tarixində nadir hadisə idi. İslahatların uğurla nəticələnməsi müharibədə zəfəri şərtləndirən amillərdən biri oldu. Bir daha təsdiq edildi ki, yalnız çevik və səmərəli idarəçilik dövlət və millətin qarşıya qoyduğu məqsədlərə nail olmağın başlıca şərtlərindən biridir.

Qazanılan qələbə yaradıcı, dinamik, enerjili, yüksək milli ruhlu Azərbaycan cəmiyyətinin kin, küdurət, nifrət, qısqanclıq hissləri içərisində boğulan və yaradıcılığın nə olduğunu bilməyən erməni cəmiyyəti üzərində əzici qələbəsi oldu. Müharibənin yekunu göstərdi ki, əgər erməni cəmiyyəti başına gələndən düzgün nəticə çıxarmasa, qonşuları ilə normal keçinməsə düşdüyü bataqlıqdan ya tamamilə çıxa bilməyib məhv olacaq, ya da hələ çoxlu onilliklər bundan sonra da onun içərisində çabalamalı olacaqdır.

Prezident İlham Əliyev təkcə hərb meydanında qazanılan qələbənin baş memarı deyil, eyni zamanda Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış münaqişənin gedişində blokadaya salınmış Naxçıvana gedən dəmiryolu və avtomobil yolunun tikintisinə dair maddənin üçtərəfli bəyanata daxil edilməsinə nail olmaqla həm bu regionun

problemini həll edən, həm də bütövlükdə daha geniş miqyaslı geoiqtisadi layihənin icrasına imkan yaratmış görkəmli strateq, dövlət və siyasi xadim olduğunu təsdiq etdi. Həmin maddədə nəzərdə tutulanların yerinə yetirilməsi nəticəsində Naxçıvanın blokadasına son qoyulacaq, İqdır-Naxçıvan dəmiryolunun tikintisi ilə Azərbaycan Türkiyə ərazisindən keçərək Avropaya çıxa, eyni zamanda Fars körfəzinə enə biləcək, Naxçıvan dünyanın mühüm nəqliyyat-kommunikasiya mərkəzinə çevriləcəkdir. Beləliklə, Bakı-Tbilisi-Qars dəmiryolu ilə yanaşı Naxçıvandan keçməklə işə düşəcək ikinci yol böyük faydalar gətirəcəkdir. Bu yolun işə düşməsi nəticəsində Türkiyənin türk dünyası ilə quru əlaqəsi qurulacaqdır. Rusiya, İran və Ermənistan isə Azərbaycan və Türkiyə ərazisindən keçməklə Avropaya çıxmaq imkanı əldə edəcəklər. Gürcüstan da bu yoldan faydala bilər. Beləliklə, regionda iqtisadi əməkdaşlıq canlanacaqdır.

Prezident İlham Əliyev təkcə hərb meydanında deyil, diplomatik-siyasi sahədə də ustalıqla və böyük məharətlə qələbə qazanaraq zəmanənin görkəmli, mahir diplomatı olduğunu təsdiq etdi. Məlum olduğu kimi, müharibənin aparılması üçün ya əlverişli beynəlxalq şərait yaradılmalıdır, ya da ondan istifadə edilməlidir. Azərbaycan dövləti uzun illər boyu yürütdüyü uğurlu siyasətin nəticəsində münaqişənin həllindən ötrü əlverişli beynəlxalq şərait yaratmağa nail oldu. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyü, Qoşulmama Hərəkatına sədrlik, Azərbaycan-Rusiya-İran, Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli formatda əməkdaşlığının səmərəliliyi müharibə zamanı bəhrəsini verdi. Bununla bağlı olaraq Prezident İlham Əliyev bildirirdi:

*"Biz regionda qonşu ölkələrlə sıx münasibətlər qurduq. Çünki əvvəllər nədənsə hesab olunurdu ki, regionda Azərbaycanın ənənəvi müttəfiqləri var və Ermənistanın ənənəvi müttəfiqləri var. Biz bu konsepsiyanı darmadağın etdik. Bu gün qonşularımızın hamısı bizim yaxın dostlarımızdır. Bizim bütün qonşularımızla həm ikitərəfli, həm üçtərəfli formatda çox gözəl əməkdaşlığımız var. Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli formatı var, Azərbaycan-İran-Türkiyə üçtərəfli formatı var, Azərbaycan-İran-Rusiya üçtərəfli formatı var. Ermənistanın hər hansı ölkələrlə bu formatı varmı? Yoxdur. Bu, bizim siyasətimizin düzgün olmasının bariz nümunəsidir. Biz Ermənistanı onların uzun illər saydıqları dayaq nöqtələrindən məhrum etdik. Çünki siyasətimizi düzgün qurmuşuq. Hər zaman öz siyasətimizi açıq aparmışıq. Heç bir ölkəyə qarşı heç bir avantürada yer almamışıq. Demişdim ki, Azərbaycan ərazisindən heç bir ölkəyə qarşı, o cümlədən, ilk növbədə, qonşulara qarşı heç bir təxribat xarakterli addım, təşəbbüs olmayacaq. Beləliklə, dünyada, regionda, qonşular arasında hörmət qazanmışıq və ölkəmizi gücləndirmişik. Bizimlə hesablaşmağa başlamışlar. Bizim sözümüzə inanırdılar və inanırlar. Həmişə demişəm, sözüm imzam qədər qüvvətlidir"[2].*

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin "Dağlıq Qarabağ və ətraf rayonlar Azərbaycan Respublikasının ərazisidir" [18] deyərək müharibədə haqq-ədalətin yanında oldu. İran İslam Respublikası və Gürcüstan da eyni mövqe tutaraq sərhədlərini işğalçı ölkəyə silah daşınması üçün bağladılar. Bu siyasət Prezident İlham Əliyevin daim xüsusi diqqət yetirdiyi "bizim üçün qonşularla yaxşı münasibətlər başlıca məqsəddir" fikrinin təkcə mövcud şəraitdə nə qədər əhəmiyyətli olduğunu təsdiq etmədi, eyni zamanda gələcək üçün bir model yaratdı.

Azərbaycana qarşı işğalçılıq siyasətinə və müharibə cinayətləri törədərək vurduğu ziyanlara görə işğalçı ölkə Ermənistan təzminat ödəməlidir. 30 il ərzində Azərbaycan ərazilərini, şəhər, kənd və qəsəbələri dağıdıb, təbii sərvətləri talayıb satıb gəlirlər əldə edən işğlaçı ölkə, hərbi əməliyyatların gedişindən uzaqda yerləşən Gəncə və Bərdədə, eyni zamanda Tərtər və b. rayonlarda mülki əhalini qətlə yetirib, soyqırımı törədib və mülki infrastruktura ağır ziyan vurub. Azərbaycan hökuməti 30 il ərzində məcburi köçkünlərin saxlanılması və torpaqları azad etməkdən ötrü apardığı müharibədə xərc çəkib. Ermənistan yüz minlərlə azərbaycanlıya mənəvi ziyan vurub. Təzminat davasının açılması, Ermənistanın boynuna boyunduruğun salınması təkcə haqq-ədalətin bərpası, beynəlxalq hüquq tələbi deyil, həm də gələcək baxımından vacibdir.

***Qələbənin dünya üçün əhəmiyyəti***

Azərbaycan dövlətinin işğlaçı ölkə üzərində qazandığı parlaq qələbənin dünya üçün böyük əhəmiyyəti vardır. Hər şeydən əvvəl, Prezident İlham Əliyev uzun illər boyun dünya siyasətində həllini gözləyən bir sıra məsələləri uğurla həll edərək BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini yerinə yetirdi. Bununla da təşkilatın nüfuzunu və ona olan inamı bərpa etdi. Prezident İlham Əliyev deyirdi:

“ Azərbaycan özü həmin qətnamələrin icrasını təmin edərək ərazi bütövlüyünü bərpa etdi. İşğalçılar qədim Azərbaycan torpağı olan Qarabağdan qovuldu. 44 gün ərzində Ermənistan ordusu tam darmadağın edildi. 2020-ci il noyabrın 10-da Azərbaycan Ermənistanı kapitulyasiya aktı imzalamağa məcbur etdi” [1].

Ermənistan təkcə hərb meydanında məğlub edilmədi. Prezident İlham Əliyev dünyanın məşhur KİV-lərinə verdiyi müsahibələri ilə bir neçə yüz il boyunca dünyanı aldadan uydurma erməni təbliğatını darmadağın etdi. Dünyada milyonlarla insan erməni yalanlarını anladı və erməni faşizminin iç üzünü gördü. Bir daha məlum oldu ki, erməni faşizmi nasizmdən daha qəddar və iyrəncdir.

Ermənistanın müharibənin əvvəlindən xristianların dini hisslərini hiyləgərliklə istismar edərək baş verənləri xristianlıq əleyhinə qələmə verməyə çalışması cəhdləri puça çıxdı. Artıq uzun illər idi ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi altında Bakıda mədəniyyətlərarası, sivilizasiyalararası, dinlərarası dialoq, humanitar forumlar keçirilirdi. Dünya ölkələri və xalqları Azərbaycanda müxtəlif dini inanclı insanların birgə yaşayışının, məscidlərin, kilsələrin və sinaqoqların yanaşı fəaliyyət göstərməsinin şahidi olurdu. Bakıda erməni kilsəsi dövlət tərəfindən qorunurdu. Bir neçə il əvvəl erməni qəbiristanlığının yeri dəyişdirilərkən hökumətin müraciəti əsasında Bakıya gələn ermənilər ya ölülərinin sümüklərini aparmışdılar, aparıla bilməyənlər isə Azərbaycan dövlətinin vəsaiti hesabına digər yerdə dəfn edilmişdi. Heydər Əliyev Fondu Vatikanda, Parisdə və b. şəhərlərdə kilsələri, Hun imperatoru Atilla ilə Roma Papasının görüşünü əks etdirən freskanı təmir etdirmişdi. Bütün bunlar Azərbaycan dövlətinin yürütdüyü siyasətin əyani təzahürü olmaqla dünya üçün də nümunə idi və qələbə qazanılmasında mühüm rol oynadı.

Azərbaycandan fərqli olaraq dövlət müstəqilliyi elan edildikdən sonra Ermənistan bütün beynəlxalq normaları pozaraq ayrı-seçkilik siyasəti yürütmüşdü. Azərbaycanlılar

tarixi torpaqları olan Ermənistandan vəhşicəsinə qovulmuş, məscidlər, müsəlman qəbiristanlıqları tamamilə dağıdılmış, işğal edilmiş ərazilərdə məscidlər donuz, mal-qara tövləsinə çevrilmişdi. Ayaqqabı ilə girilməyən Allahın evinə belə münasibətin yalnız bir adı var idi: vəhşi icma, qəbilə təfəkkürü! İşğal altındakı torpaqlarda qəbiristanlıqlarda qəbirlər dağıdılmış və ölülərin qızıl dişləri çıxarılmışdı. Əslində Ermənistan bu barbar hərəkətləri ilə sülh dini olan xristianlığa və xristianlara daim ləkə gətirdiyini bir daha təsdiq etmişdi.

Müharibənin gedişində Ermənistan təbliğatının guya "ikinci erməni soyqırımı" törədiləcək iddialarının da tamamilə əsassız olduğu təsdiq edildi. Azərbaycan dövləti əgər "soyqırımı" həyata keçirsəydi, Bakıda bir neçə min nəfər erməni necə yaşaya bilərdi? [15]

Ermənistanın daha bir uydurması da dünyada özünə geniş tərəfdarlar tapa bilmədi. Azərbaycanın haqq işinin Türkiyə tərəfindən müdafiə edilməsinin ermənilərin "turançılıq", "pantürkizm" və "yeni osmançılıq" kimi qələmə vermələrinə dair iyrənc təbliğat da puça çıxdı. Ermənistan Baş nazirinin Avropa ölkələrinə müraciətlə "erməniləri Türkiyədən müdafiə etmirsiniz, o zaman az vaxt keçər Türkiyəni yenidən Vyana qapılarında görərsiniz" kimi cəfəng sözlərinə daha kimsə inanmadı. Türkiyənin Azərbaycan dövlətinin yanında olması "turançılıq", "pantürkizm" və "yeni osmançılıq" deyil, haqq-ədalətin və beynəlxalq hüquq prinsiplərinin yanında olması, əslində digər dövlətlərə də örnək idi.

Azərbaycanın zəfəri eyni zamanda ermənilərin birbaşa və ya gizli şəkildə əsassız ərazi iddiaları irəli sürdükləri Gürcüstan, Rusiya, Türkiyə və İranın da qələbəsi idi. Məlum olduğu kimi, Gürcüstanın Samtsxe-Cavaxeti bölgəsini Ermənistana birləşdirmək məqsədilə separatçılıq fəaliyyətləri ilə məşğul olan ermənilər belə hesab edirlər ki, onların təminatçısı Tbilisi deyil, İrəvandır [14]. Azərbaycanın qələbəsi gürcü xalqının qələbəsi, Gürcüstanda yaşayan ermənilərin Ermənistana birləşmək xəyallarının puç olması, onların da böhranının dərinləşməsi deməkdir. Heç əbəs deyildir ki, bir çox gürcü alimləri Azərbaycanın qələbəsini Gürcüstanın qələbəsi kimi qiymətləndirirlər. Əvvəlki illərdə olduğu kimi, müharibə günlərində də Ermənistanın Azərbaycan – Gürcüstan münasibətlərini pozmaq cəhdləri yenə də iflasa uğradı [5]. Gürcüstan dövləti işğlaçı ölkə ilə sərhədlərini bağladı və Azərbaycanın ərazi bütövlüyünü müdafiə etdi.

Azərbaycanın qələbəsi Rusiyada yaşayıb sərvət toplayan, yüksək məqamlara yüksələn, lakin Rusiyaya və rus xalqına arxadan zərbə vuran, ayaqlarının altını qazan və Qara dəniz sahilləri torpaqlarına əsassız iddialar irəli sürən ermənilərə də ağır zərbə oldu. Ermənilərin bundan sonra Rusiya torpaqlarında özlərini istədikləri kimi aparmaları çətin olacaqdır.

Azərbaycanın qələbəsi Türkiyəyə qarşı əsassız olaraq irəli sürülən, tarixdə olmayan qondarma "soyqırımı" tanıma, təzminat, torpaq tələbləri irəli sürən erməniləri təkcə siyasi deyil, eyni zamanda mənəvi-psixoloji böhrana saldı. Bu qələbə onlara acı dərc oldu.

İrandan yardımlar alan Ermənistanın Tehrana xəyanət edərək ona düşmən olan ölkələrin əlində vasitəyə çevrildiyi də aydın oldu. Sərhədlərini bağlayan İran xəyanətkar Ermənistana silah daşınmasına imkan vermədi.

Qələbə xarici ölkələrdə yaşayan ermənilərə və lobbisinə ağır zərbə endirdi. Bundan sonra zəngin ermənilər heç bir gələcəyi olmayan Ermənistana sərmayə qoymaqda və pullarını havayı yerə göyə sovurmaqda maraqlı olmayacaqlar.

Müharibə uzun əsrlər boyu özlərini dünya ölkələrinə və xalqlarına hiyləgərliklə "mədəni xalq" kimi sırıyan ermənilərin əsl iç üzünü açdı. Maskası yırtılan erməni qəbiləsinin vəhşi olduğunu dünya ölkələri və xalqları əyani olaraq gördü. Tərtər şəhərində, hərbi əməliyyatlar meydanından uzaqda yerləşən Gəncə, Bərdə və Ağcabədidə yaşayış binalarının qadağan edilmiş raketlərdən atəşə tutularaq dağıdılması həm ağır müharibə cinayəti, həm də erməni qəbiləsinin vəhşiliyinin göstəricisi idi.

Döyüş meydanında hərbi mundirini, papağını, biletini qoyub qaçan, lakin yaralı əsgərlərini və meyitlərini götürüb aparmayan ermənilərin Azərbaycanın işğal altında saxladıqları əraziləri boşaltmağa məcbur olub Kəlbəcəri tərk edərkən unitazı qucaqlarına alıb daşımaları bir daha göstərdi ki, bu qəbilə üçün bir unitaz döyüş meydanında gəbərmiş işğalçı erməni əsgərinin cəsədindən daha qiymətlidir.

Dünyanın məktəbə, maarifə, səhiyyəyə ehtiyac duyduğu bir şəraitdə ermənilərin Kəlbəcər, Laçın və digər yerlərdə təkcə yaşayış evlərini deyil, kitabxanaları, məktəbləri, klubları və tibb məntəqələrini, dünyanın ağ ciyərləri hesab edilən meşələri yandırmaları və doğramaları da erməni vəhşiliyinin göstəricisi idi. Ermənistan Azərbaycana qarşı amansız hidroterroru da həyata keçirmişdi [3]. Bir zamanlar Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinin guya ekologiyaya ziyan vuracağını deyən "yaşıllar"ın, qeyri-hökumət təşkilatlarının bu vəhşilik qarşısında susmaları onların da əsl simasını göstərdi.

Ermənistan haqsız və gücsüz olduğu üçün müharibədə məğlub oldu. Həm haqq-ədalət, həm də beynəlxalq hüquq Azərbaycanın tərəfində idi.

Tarixi fakt və materiallar göstərir ki, hansısa amillərin təsiri altında çarizm daim erməniləri himayə edib, əvəzində isə onlar rus xalqına və Rusiyaya daimi xəyanət ediblər [10]. Məlum olduğu kimi, çarizm erməniləri XIX əsrdə və sonralar Cənubi Qafqaza gətirərək azərbaycanlılara məxsus torpaqlara yerləşdirmiş və əlverişli şərait yaratmışdı. Əvəzində 1905-1906-cı illərdə erməni terror-siyasi təşkilatları Rusiyanı zəiflətməkdən ötrü fəaliyyət göstərmiş və ona düşmən olan xarici ölkələrin agentləri kimi çalışmışdılar. Erməni təşkilatları Birinci Dünya müharibəsi illərində çarizmdən silahlar alıb bandalar düzəltsələr də, sonradan həmin silahı ruslara və Rusiyaya qarşı yönəltmişdilər [10]. Brest-Litovsk barışığı zamanı Cənubi Qafqazın xəritəsi cızılarkən ermənilər üçün də nəzərdə tutulan kiçik bir ərazidə 1918-1920-ci illərdə qurulan Daşnak Ermənistanından digər xalqlarla bərabər, rusları da qovmuşdular. Həmin illərdə Ermənistanda rusların sayı 15 min nəfərdən 14 min nəfərə düşmüş və ya 7% azalmışdı [11, s.424]. Sovet hakimiyyəti illərində Mərkəz Ermənistana nə qədər qayğı göstərsə, dotasiya ilə yaşatsa da, ermənilər daim ruslara nifrət etmiş, rus dili və mədəniyyətinə həqarətlə baxmış və rusları geri qalmış hesab etmişdilər.

1991-ci ildən sonra mövcud olan bütün hakimiyyətlər zamanı Ermənistanda yürüdülən siyasət əslində Rusiyanın və rus xalqının əleyhinə olub. Ermənilər Rusiyadan hərbi-texniki və digər yardımlar alaraq, Azərbaycan ərazilərini işğal edərək çirkin niy-

yətlərinə çatıb, arxadan isə Rusiyanın və rusların kürəyinə xəncər sancıb. Ermənistanda rus əhalisi demək olar ki, yoxdur. Rus məktəbləri və kütləvi informasiya vasitələri bağlanıb [16].

Çətin vəziyyətdə olan Ermənistan bir tərəfdən, Rusiyaya yalvarmaqda davam etsə də, digər tərəfdən ona arxadan zərbə vurmaq üçün fürsət gözləyir. Erməni təşkilatları Rusiyanın Qara dəniz sahili torpaqlarına iddia edirlər [9].

Ermənistanda bəzi partiya və qruplar Vladimir Putin, İlham Əliyev və Nikol Paşinyanın imzaladıqları bəyanatı təftiş etməyə, qisas almağa və yeni müharibəyə cəhdlər edirlər. Müharibə çağırışları birbaşa Rusiyanın nüfuzunu sarsıtmaq, regionda sabitliyin qurulmasında maraqlı olmayan dövlətlərin siyasətinə xidmət etməkdir. Bəzi erməni siyasətçiləri deyirlər ki, guya Ermənistan Cənubi Qafqazda Rusiyanın yeganə strateji müttəfiqidir. Bu fikirlər cəfəngiyyatdan başqa bir şey deyildir. Çünki həmişə olduğu kimi, Ermənistan Rusiyanın çiyinlərində bir yükdür, iyrənc siyasəti ilə rus xalqına və Rusiya Federasiyasına yalnız hörmətsizlik gətirir. Regionda Rusiya əleyhinə olan ən xırda əhval-ruhiyyə varsa, onun da kökü daim əsassız iddiaları və haqsız olan ermənilərin davranışları ilə bağlıdır.

Ermənistanda digər millətlər üçün yaşamağa təminatlar mövcud deyildir. Yəhudilər də daim sıxışdırılıb və çıxarılıb. Antisemitizmin tüğyan etdiyi ölkələr arasında Ermənistan ön yerlərdədir [4].

Hərbi əməliyyatlar Ermənistanın rüsvayçı məğlubiyyəti ilə başa çatsa da, İrəvanda hələ revanşizm çağırışları eşidilir. Ermənistanın yeni bir müharibə cəhdi ilk növbədə özünə intihar etmək deməkdir. Müharibədə qalib gəlmək üçün dövlətin qüdrəti lazımdır. Ermənistanın belə bir gücü, insan ehtiyatı və potensialı yoxdur. Müharibənin gedişində bir daha aydın oldu ki, Ermənistan ordu sıralarını doldurmağa adam tapa bilmir, uşaqları və qadınları cəbhəyə yollayırdı. Dərin demoqrafik böhranın mövcud olduğu, əhalisinin artmadığı, əksinə yaşayanların da tərk edib getdiyi Ermənistanın bir dövlət kimi gələcəyi yoxdur. Xarici ölkələrdən uzun on illər boyu olduğu kimi, ermənilərin aldadılıb Ermənistana gətirilməsi nağıllarına daha inanan yoxdur. Deməli, yeni müharibə olacağı təqdirdə Ermənistanda döyüşə getməyə heç qocalar da qalmayacaqdır.

Məlum olduğu kimi, müharibə dövlətin həm də maliyyə-iqtisadi qüdrəti, hərbi-sənaye kompleksinin gücü ilə aparılır. 8 milyard dollar xarici borcu olan Ermənistanda belə bir sənayeni qurmağa imkan yoxdur. Erməni xalqının elmi-intellektual potensialı da bu işləri görmək iqtidarında deyildir. Deməli, Prezident İlham Əliyevin dediyi kimi, Ermənistan əgər müharibə istəyəcəksə, eyni nəticəni alacaqdır [6].

Müharibədə Azərbaycan dövlətinin qazandığı qələbə ermənilərin bədbəxtliyinin köklərini bir daha üzə çıxardı. Göstərdi ki, erməni ünsürünün bədbəxtliyinin başlıca səbəbi son iki yüz ildə gəlib yerləşdikləri və aborigen olmadıqları regionda yerli xalqlarla dil tapıb keçinməməkdə və üçüncü qüvvəni buraya gətirməkdədir. Müstəqil yaşamaq təfəkkürünə və potensialına sahib olmadığından daim qul psixologiyasına malik olan bu ünsür Rusiyadan istifadə edib istəklərinə çatır, sonra xəyanət edərək ona arxadan zərbə endirir, çətin vəziyyətə düşən kimi "bizi xilas edin" deyə bağırır. Onlar belə hesab edirlər ki,

rus əsgərləri gəlib onların avantürist xəyalları yolunda ölməli, anaları gözüyaşlı qalmalı, ermənilər isə yenə də özlərini həyasız aparmalı və Rusiyaya xəyanət etməlidirlər.

Müharibədə qazanılan qələbə eyni zamanda ermənilərin nicatının nədə olduğunu göstərdi. Ermənilərin nicatı qonşu xalqlarla, ilk növbədə Azərbaycan və Türkiyə ilə mehriban qonşular kimi yaşamaqdan keçir. Hər bir xalqın inkişafı üçün başlıca amil təkcə təbii sərvətlər, ərazinin həcmi deyil, qarşılıqlı faydalı əməkdaşlıqdır. Ermənistan isə hələ də əməkdaşlığa hazır olmayan ölkədir. Ermənistan əsassız iddialarından əl çəkəcəyi və əməkdaşlığa hazır olacağı təqdirdə nəsə qazanc əldə edə bilər. Yoxsa bu qurama dövlətin gələcəyi yoxdur [12].

***Nəticə***

Beləliklə, Vətən müharibəsində qazanılan qələbənin Azərbaycan və dünya üçün böyük tarixi əhəmiyyəti vardır. Azərbaycan işğal altında olan torpaqlarını azad etməklə BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmiş, beynəlxalq hüququ və ədaləti bərpa etmişdir. Şəhidlərin müqəddəs qanı, əsgər və zabitlərin qəhrəmanlığı ilə qazanılan və millətə qürur yaşadan qələbənin memarı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevdir. Tarixi qələbə regionda yeni reallıqlar yaradır. Torpaqların işğaldan azad edilməsi Azərbaycan qarşısında yeni üfüqlər açır.

**Ədəbiyyat siyahısı**


1. Azərbaycan müsəlman ölkələri arasında həmrəyliyə dəyərli tövhələr verir. İqtisadi Əməkdaşlıq Təşkilatının XIV onlayn Zirvə toplantısı keçirilib. // “Azərbaycan” qəzeti, 2021, 5 mart.
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti. 01.01.2021. // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. https://president.az/articles/49798
3. Baxşıyeva Y. Hidroterror. // “Azərbaycan” qəzeti, 2020, 16 oktyabr.
4. Əzimzadə A. Ermənistanda antisemitizm. // “Azərbaycan” qəzeti, 2020, 4 oktyabr.
5. Həbibbəyli S. Azərbaycan – Gürcüstan münasibətlərini pozmaq Ermənistanın əsas hədəflərindəndir. // “Azərbaycan” qəzeti, 2020, 14 oktyabr.
6. İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib. 10.10.2021 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. https://president.az/articles/51454
7. İlham Əliyev xalqa müraciət edib. 10.11.2020. // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https://president.az/articles/45924/print.
8. İlham Əliyev xalqa müraciət edib. 20.10.2020. // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https://president.az/articles/43696
9. Kəlbizadə E. Ermənilərin Abxaziyada məkrli niyyətləri və hədəfi: “Qaradənizsahili Ermənistan”. // “Xalq qəzeti”, 2020, 16 oktyabr.
10. Qasımlı M. Erməni kilsəsinin xristianlıq və Rusiya əleyhinə fəaliyyətləri. // “Azərbaycan” qəzeti, 2020, 12 noyabr.
11. Qasımlı M. “Erməni məsələsi”ndən “erməni soyqırımı”na: gerçək tarix axtarışında:gerçək tarix axtarışında (1724-1920). Bakı, 2014.
12. Qasımlı M. Ermənistan heç bir gələcəyi olmayan dövlətdir. // “Publika” qəzeti, 2020, 1 dekabr.
13. Qasımlı M. İlham Əliyevin zəfəri. // “Azərbaycan” qəzeti, 2020, 5 dekabr.

14. Qasımlı M., Ömərov V., Məmmədova N., Həbibbəyli S., Salayev K. Gürcüstanda erməni təşkilatlarının fəaliyyəti (XIX əsr-XXI əsrin əvvəlləri). Bakı, 2020.
15. Qasimli M. Armenia: lies and realities. // https://moderndiplomacy.eu/2020/10/28armenia-lies-andrealities/?Fbclid
16. Мусаева Г. Ситуация с русским языком в Армении. // Газ. “Бакинский рабочий”, 10.10.2020.
17. Prezident, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşüb. 26.06.2021. // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https://president.az/articles/52331
18. Путин высказался о территориальной принадлежности Нагорного Карабаха. 22.11.2020. // Риа-новости. URL: https://ria.ru/20201122/karabakh-1585785534.html